# Regionlarda görülən işlərin əsas məqsədi əhalinin sosial rifahını daha da yaxşılaşdırmaqdır



> **Neft bizim üçün məqsəd deyil, daha yaxşı həyat yaratmaq, daha yaxşı ölkə qurmaq üçün vasitədir.**
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

***Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilən və yüksək səviyyədə gerçəkləşdirilən dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası respublikada qeyri-neft sektorunun davamlı inkişafına, kommunal xidmətlərin, sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə əhalinin məşğulluğunun artırılmasına, yoxsulluq səviyyəsinin azaldılmasına təkan verib.***

Regionların 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramından əvvəl bu istiqamətdə qəbul edilən (2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə) digər proqramların icrası dövründə ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb.

Bu müddətdə reallaşdırılan məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə açılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enib. Dövlət proqramları çərçivəsində görülən genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaradıb.

Əvvəlki proqramlarda olduğu kimi, "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illəri əhatə edən regional Dövlət Proqramı "nda da sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması Azərbaycan Prezidentinin iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindəndir. Ümumiyyətlə, dövlət proqramlarının qəbulundan ötən müddət ərzində ölkədə sahibkarlığın dinamik inkişaf etdirilməsi və genişləndirilməsi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi, onların hüquqlarının etibarlı müdafiə mexanizmlərinin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilib, güclü özəl sektor formalaşdırılıb, biznes və investisiya mühiti daha da yaxşılaşdırılıb, sahibkarların sayı artaraq ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilib.

Dövlət proqramlarının icrası dövründə sahibkarlığın inkişafı ilə bağlı qanunvericilik bazası təkmilləşdirilib, inzibati prosedurlar sadələşdirilib, vergi yükü azaldılıb, sahibkarlığa sistemli dövlət dəstəyi tədbirləri icra olunub.

Bununla yanaşı, Azərbaycan Prezidentinin 28 dekabr 2017-ci il tarixli "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi" haqqında Fərmanı ilə ölkədə investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi və səmərəli əlaqələndirmənin tətbiqi, mikro, kiçik və orta sahibkarlığın (KOB) iqtisadiyyatda rolunun və rəqabət qabiliyyətinin artırılması məqsədilə İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" yaradılıb.

Son illərdə sahibkarlığın inkişafına dövlətin maliyyə dəstəyi daha da yaxşılaşıb, güzəştli kreditlərin həcmi əhəmiyyətli dərəcədə artıb. Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və bu sahəyə dövlət qayğısının artırılmasının nəticəsidir ki, Sahibkarlığın İnkişafı Fondu 2020-ci ildə 908 layihəyə 127 milyon manatadək güzəştli kredit ayırıb. Kreditlər əsasən aqrar sektora, sənaye məhsullarının istehsalı, xidmət və turizm sahələrinə yönəldilib. Cari ildə isə sahibkarlara 130 milyon manat güzəştli kreditin verilməsi nəzərdə tutulub.

Bununla yanaşı, pandemiyadan zərərçəkmiş iqtisadi fəaliyyət sahələri üzrə sahibkarlara 370 milyon manat yeni biznes kreditlərinin, bu kreditlərə 222 milyon manat məbləğində dövlət zəmanətinin və 58 milyon manat faiz subsidiyasının, eləcə də mövcud kreditlər üzrə faizlərin subsidiyalaşdırılmasına 80 milyon manat vəsaitin verilməsi proqnozlaşdırılıb.

İxracın stimullaşdırılması istiqamətində işlər davam etdirilib, beynəlxalq sərgilərdə "Made in Azerbaijan" vahid ölkə stendləri ilə Azərbaycan ixracatçılarının iştirakı təmin olunub, xarici ölkələrdə ticarət evlərinin yaradılması istiqamətində müvafiq tədbirlər görülüb, Belarus, Ukrayna, Latviya, Çin və Polşada ticarət evləri, Rusiya Federasiyasının Həştərxan vilayətində Azərbaycan iş mərkəzi yaradılıb, Çin Xalq Respublikasının Urumçi və Şanxay şəhərində şərab evləri açılıb, Rusiya, Çin, Birləşmiş Ərəb Əmirlikləri və Polşada ticarət nümayəndələri təyin edilib. Bütün bunlarla bərabər, müxtəlif qeyri-neft məhsulları ixracatçılarına ixrac təşviqi ödənilib ki, bu da ölkədə qeyri-neft ixracının artımını sürətləndirib.

Azərbaycan Prezidentinin müvafiq fərmanlarına əsasən, lisenziyaların və icazələrin elektron qaydada verilməsini, göstərilən xidmətlərin daha da təkmilləşdirilməsini təmin etmək üçün İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə "Lisenziyalar və icazələr" portalı yaradılıb. Bu, sahibkar məmnunluğunun təmin edilməsi istiqamətində mühüm rol oynayıb.

Ötən müddət ərzində əhalinin gəlirlərinin artırılması istiqamətində əməli tədbirlər görülüb, minimum əməkhaqqının ölkə üzrə yaşayış minimumuna çatdırılması siyasəti davam etdirilib, əmək siyasəti və əməyin ödənilməsi sahəsində həyata keçirilən islahatlar nəticəsində işləyənlərin orta aylıq əməkhaqqının ilbəil artması əhalinin həyat səviyyəsinin yüksəldilməsini gerçəkləşdirib.

Sənayenin maşınqayırma, metallurgiya, kimya, mebel, toxuculuq, qida və digər sahələrində dinamik artım baş verib, dünya iqtisadiyyatının böhranla üzləşdiyi dövrdə belə Azərbaycan sənayesinin qeyri-neft sektorunda inkişafa nail olunub. Regional inkişafla bağlı dövlət proqramları çərçivəsində qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə bölgələrdə sənaye parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində xeyli iş görülüb.

Prezident İlham Əliyevin 22 yanvar 2021-ci il tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyindəki "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətin əsasında İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılıb. Bu məqsədlə ölkədəki bəzi sənaye parkları və məhəllələri "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin tabeliyindən çıxarılıb. Dövlətimizin başçısı bununla bağlı müvafiq sərəncam imzalayıb.

Sərəncama əsasən, Neftçala, Masallı, Hacıqabul, Sabirabad sənaye məhəllələri və Mingəçevir, Qaradağ, Pirallahı sənaye parkları İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin tabeliyinə verilib.

Qeyd edək ki, İqtisadi Zonaların İnkişafı Agentliyi sənaye parklarının (Balaxanı Sənaye Parkı istisna olmaqla), sənaye məhəllələrinin (Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla) və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlayan, həyata keçirilməsini reallaşdıran, o cümlədən bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərində iştirak edən publik hüquqi şəxsdir.

"Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətin balansındakı əmlak agentliyin balansına veriləcək. "Sumqayıt Kimya Sənaye Parkı" MMC isə öz fəaliyyətini davam etdirəcək.

Xatırladaq ki, İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin yaradılması ölkədəki mövcud sənaye parkları, sənaye məhəllələri və aqroparklar sahəsində idarəetməni, habelə nəzarət mexanizmlərini daha da təkmilləşdirmək, bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq, daha sıx koordinasiyanı, həmçinin sistemliliyi təmin etmək məqsədi daşıyır.

Qabaqcıl korporativ idarəetmə standartlarına müvafiq olaraq, agentliyin müvafiq dövlət qurumlarının nümayəndələrindən ibarət Müşahidə Şurası və İdarə Heyəti formalaşdırılacaq.

**(ardı 2-ci səhifədə)**

Xalq qəzeti 2021.- 11 fevral.- S.1;2.

# Regionlarda görülən işlərin əsas məqsədi əhalinin sosial rifahını daha da yaxşılaşdırmaqdır

*(əvvəli 1-ci səhifədə)*

Fərmanda bu iqtisadi subyektlərin fəaliyyətinin qiymətləndirilməsi və onların səmərəliliyinin artırılması barədə təkliflərin hazırlanması da nəzərdə tutulub. Sənaye parkları, sənaye məhəllələri və aqroparkların işinin səmərəli, yeni tənzimləyici və idarəetmə çərçivəsində təşkili ölkəyə sərmayə axını, ixracın genişlənməsi və iş yerlərinin yaradılması prosesini sürətləndirəcək. Bununla bərabər 4-cü sənaye inqilabının texnologiyalarının ölkəyə transfer edilməsini də şərtləndirəcək.

Bununla yanaşı, Prezident tərəfindən ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılığın, baramaçılığın, ipəkçiliyin, tütünçülüyün, çəltikçiliyin, çayçılığın, fındıqçılığın, sitrus meyvəçiliyinin, üzümçülüyün və şərabçılığın inkişafı istiqamətində imzalanan sərəncamlar, təsdiqlənən sahəvi proqramlar, həmçinin istehsalçılara subsidiyaların verilməsi haqqında qərarlar müvafiq sahələr üzrə istehsal və ixrac potensialının artırılmasını, məşğulluq səviyyəsinin yüksəlməsini sürətləndirib.

Aqrar sahədə həyata keçirilən sistemli tədbirlər nəticəsində ölkəmizin kənd təsərrüfatı və ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlib, ərzaq məhsullarının istehsalı artıb, ixrac imkanları genişlənib.

Son illərdə inkişaf edən infrastruktur sahələrindən biri də nəqliyyat sektorudur ki, bu sahəyə davamlı və iri həcmli investisiyaların yönəldilməsi nəticəsində nəqliyyat vasitələrinin yenilənməsi, körpülərin tikilməsi, yeni avtomobil yollarının çəkilməsi, yenidən qurulması və s. işlər davam etdirilib, strateji əhəmiyyətli layihələrin səmərəli fəaliyyəti sahənin inkişafına öz müsbət təsirini göstərib.

Ölkənin tranzit potensialının reallaşdırılması istiqamətində əhəmiyyətli tədbirlər görülüb, o cümlədən, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyəti güclənib, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilib.

Dövlət Proqramları çərçivəsində regionlarda infrastrukturun bərpası və inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən, elektrik enerjisi, qaz və su ilə təchizatı, səhiyyə və təhsil müəssisələrinin tikintisi, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilməsi üçün bu sahəyə irihəcmli dövlət investisiyaları yönəldilib.

Regionların inkişafında sosial məsələlərin həlli ilə bağlı zəruri tədbirlər davam etdirilib, insan amili daim diqqət mərkəzində saxlanılıb, bu sahəyə xidmət edən sosial infrastrukturun yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb. Təhsil, səhiyyə, mədəniyyət və digər sosial layihələrin reallaşdırılmasında mühüm rolu olan Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan layihələrin miqyası minlərlə insanın sosial şəraitinin yaxşılaşması üçün yeni imkanlar açıb.

Regional inkişaf sahəsində beynəlxalq (Avropa İttifaqı ölkələri, ABŞ, Çin, Yaponiya, Rusiya, Qazaxstan) təcrübələrin təhlili göstərir ki, müasir dövrdə bu istiqamətdə həyata keçirilən siyasətin paradiqması dəyişir. Belə ki, köhnə paradiqmada əsas problem kimi gəlirlər, məşğulluq, fiziki və bazar infrasrukturu üzrə regional fərqlər önə çəkilirdisə, yeni paradiqmada regionların potensialından istifadənin səmərəliliyinin və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin daha da artırılması, yaşıl iqtisadiyyatın formalaşması, innovativ yanaşmaların tətbiqi kimi məsələlərə daha çox diqqət yetirilir.

Hazırda Azərbaycanda regionların inkişafı siyasəti əsas etibarilə milli səviyyədə hazırlanan regional inkişaf proqramlarına əsaslanır. Bu proqramların icrası nəticəsində regionlarda sosial və fiziki infrastruktur sahələrinin inkişafı, beynəlxalq standartlara uyğun yeni müəssisələrin və iş yerlərinin yaradılması, əhalinin rifahının yüksəldilməsi istiqamətində irimiqyaslı işlər görülür və əhəmiyyətli sosial-iqtisadi nəticələr əldə olunur.

Yuxarıda qeyd olunan paradiqma dəyişikliyi prizmasından çıxış edərək Azərbaycanda da regionların inkişafının planlaşdırılmasında və həyata keçirilməsində yerli idarəetmə, o cümlədən, yerli özünüidarəetmə orqanlarının, kənd icmalarının daha fəal cəlb olunması yolu ilə hər bir vətəndaşın həyat səviyyəsinin yaxşılaşdırılması sahəsində tədbirlər nəzərdə tutulur.

**Vaqif BAYRAMOV,**
**“Xalq qəzeti”**